# Azərbaycanda yeni sistemli iqtisadi strategiya formalaşır

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda yeni hazırlanan bir qanun layihəsi və yeddi qanun layihəsinə dəyişiklik müzakirə edilib. Bunlar "Əmanətlərin tam sığortalanması haqqında" yeni qanun layihəsi, "Əmanətlərin sığortalanması haqqında", Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Valyuta tənzimi haqqında", "Dövlət satınalmaları haqqında", "Gömrük tarifi haqqında", Vergi və İnzibati Xətalar məcəllələrində dəyişikliklər olunması barədə qanun layihələri idi.

Komitə sədri Ziyad Səmədzadə bildirdi ki, qanun layihələri Milli Məclisin növbədənkənar sessiyasının gündəliyinə təqdim olunmalıdır. Z.Səmədzadə qlobal böhrana və neftin qiymətinin 4 dəfəyədək ucuzlaşmasına baxmayaraq Azərbaycanın dinamik inkişafının davam etdiyini qeyd etdi. Ölkədə nəzərdə tutulan sosial proqramlar icra olunmaqdadır. Azərbaycanda neft iqtisadiyyatından bütövlükdə şaxələndirilmiş və liberal iqtisadiyyata keçidin təmin olunması yeni iş yerlərinin açılmasına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edir.

Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin sədri Elman Rüstəmov vurğuladı ki, ölkədə yeni sistemli iqtisadi strategiya formalaşır. Əsas vəzifə dinamik dəyişən beynəlxalq iqtisadiyyata uyğun olaraq qlobal iqtisadiyyatdan gələn şokların neytrallaşdırılması, büdcənin yığcamlaşdırılması, Dövlət Neft Fondunun vəsaitlərinin səmərəli istifadə edilməsi və bütövlükdə iqtisadi sabitliyin tam bərpa olunmasıdır.

E.Rüstəmov bildirdi ki, yeni hazırlanan qanun layihələri bütövlükdə iqtisadi sabitliyin təmin olunmasına və islahat strategiyasına yönəlib. İnkişaf etmiş ölkələr də bu qanun layihələrini tətbiq edirlər. Onun sözlərinə görə, MDB ölkələrinin heç birində belə bir hüquqi sənəd yoxdur: "2008-ci ildə dünyada yaşanan və hələ də davam edən ağır maliyyə-iqtisadi böhranla əlaqədar onlarla aparıcı, inkişaf etmiş ölkə belə bir addıma gedib, bu yöndə müvafiq qanun qəbul edib. Ona görə biz də belə bir qanun layihəsinin ("Əmanətlərin tam sığortalanması haqqında" qanun layihəsi) hazırlanması və qəbul olunması yoluna üstünlük verdik. Ümumiyyətlə, bu, müvəqqətidir. Daha doğrusu, bank sektorunda müəyyən problemlər yaranarsa, dərhal bu qanun dövriyyəyə girəcək, bank sektorunda tam sabitlik yarandıqdan sonra isə ona ehtiyac qalmayacaq. Onu da deyim ki, bu sənədin qəbulu ilə Azərbaycandakı bütün əmanətçilərin əmanətləri tam sığortalanacaq. Bu, çox ciddi, radikal addımdır, həm də dövlət başçısının xalqın maraqlarının təmin olunması baxımından atdığı bir addımdır. Bununla Azərbaycandakı 6 milyon 600 min nəfər əmanətçinin hər birinin əmanəti tam sığortalanacaq".

İqtisadiyyat naziri Şahin Mustafayev isə bildirdi ki, bu, Azərbaycanda insanların, əmanətçilərin hüquqlarının qorunmasını nəzərdə tutan bir sənəddir: "Bu, belə də qiymətləndirilməlidir. Bu, irəliyə doğru atılmış çox mühüm addımdır". Nazirin fikrincə, ölkədəki devalvasiya istehlak bazarına da təsirsiz ötüşməyib. Hazırkı vəziyyətdə ən vacib məsələ əhalinin sosial müdafiəsinin gücləndirilməsi, manata etimadın artırılması və iqtisadi sabitliyin təmin edilməsidir. Nazirin sözlərinə görə, Milli Məclisin növbədənkənar sessiyasının gündəliyinə təqdim olunan qanun layihələri yerli və xarici investisiyaların artmasına kömək edəcək.

Şahin Mustafayev onu da bildirdi ki, Azərbaycanın milli brendinin yaradılması, qeyri-neft ixracının təşviqi və bu prosesdə dövlətin birbaşa iştirakı nəzərdə tutulub: "Bununla da Azərbaycanda qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına nail olacayıq". Nazirin sözlərinə görə, kənd təsərrüfatı, emal və sənaye sahəsi üzrə 150-yə yaxın layihə bir il və bir il yarım ərzində icra olunmalıdır: "Bunun nəticəsində 15 minə yaxın yeni iş yeri açılmalıdır. İqtisadi aktivlik yüksəlməlidir. Layihə xərclərinin azalması nəticəsində Azərbaycanın məhsullarının rəqabətqabiliyyəti artmalıdır. Dövlət satınalmalarında yerli istehsalın payı artmalıdır. Bununla da daxili istehsalı qorumuş olacağıq".

Sonra iclasda komitə üzvlərindən Vahid Əhmədov, Əli Məsimli çıxış edərək fikir və təkliflərini səsləndirdilər. Deputatların fikirləri dinlənildikdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***